# İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini ADA Universitetində olub

İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmondo Çirielli Azərbaycana səfəri çərçivəsində aprelin 3-də ADA Universitetində rektor Hafiz Paşayevlə görüşüb.



ADA Universitetindən AZƏRTAC-a bildirilib ki, rektor İtaliya-Azərbaycan Universitetinin təsis edilməsi sahəsində görülmüş işlər və gələcək planlar barədə məlumat verib, müxtəlif sahələr üzrə yüksəkixtisaslı mütəxəssislərin yetişdirilməsində tərəfdaş italyan universitetləri ilə birgə fəaliyyətdən söhbət açıb.

Nazir müavini Edmondo Çirielli bu layihənin ümumilikdə mədəniyyət və təhsil sahəsində əməkdaşlığın iki ölkə arasındakı münasibətlər üçün əhəmiyyət kəsb etdiyini vurğulayıb və ADA Universitetinin bilik və təcrübə mübadiləsindəki rolunu təqdir edib.

Görüşdən sonra rektor Hafiz Paşayevlə birlikdə İtaliya-Azərbaycan Universitetinin ADA Universitetinin kampusundakı tikinti sahəsi ilə tanışlıq olub, xatirə şəkli çəkilib.

Azərbaycan.- 2023.- 4 aprel.- S.2.